

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 48 (21.709)

8 mart 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Hindistanlı diplomat muxtar respublikanın bir sıra istehsal, təhsil, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub





***Xəbər verdiyimiz kimi, Hindistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana martın 5-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Səfər çərçivəsində diplomat muxtar respublikanın təhsil, mədəniyyət, səhiyyə və istehsal müəssisələri ilə tanış olub.***

Qonaq əvvəlcə ulu öndərin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.

Martın 5-də Heydər Əliyev Sarayı, Bəhruz Kəngərli Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və Naxçıvan Dövlət Rəsm Qalereyası, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq qonaqda xoş təəssürat yaradıb.

Martın 6-da hindistanlı diplomat Naxçıvan Biznes Mərkəzində olub. Məlumat verilib ki, 2004-cü ildə əl işləri və sənət əsərlərinin sərgi və satışı, sahibkarların tədris-informasiya məkanı kimi yaradılan mərkəz 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirir. Hazırda buradakı sərgi salonunda muxtar respublikada fəaliyyət göstərən 88 müəssisənin 189 növdə və 988 çeşiddə məhsulu, eyni zamanda yerli sənətkarlar tərəfindən hazırlanmış 100-dən çox əl işi, rəsm əsərləri və xalçalar nümayiş etdirilir.

Naxçıvan Avtomobil Zavodu ilə tanışlıq zamanı isə bildirilib ki, Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqların quraşdırıldığı zavodda “NAZ-Lifan” markalı avtomobillər istehsal edilir. İllik istehsal gücü 4-5 min ədəd minik avtomobili olan zavod Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Zavodda həm mexaniki, həm də avtomatik ötürücü sürət qutusu ilə işləyən avtomobillər istehsal edilir.

“Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətində qonağa burada istehsal olunan “Badamlı” mineral suyu haqqında məlumat verilib. Qeyd olunub ki, Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan yeni istehsal müəssisəsi 2009-cu ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

“Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal prosesi ilə maraqlanan səfir daha sonra “Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində olub. Burada isə qonağa müəssisədə istehsal olunan keyfiyyətli meyvə şirələri, meyvə quruları, şərab, halva məhsulları haqqında məlumat verilib. Bildirilib ki, müəssisədə Naxçıvanda yetişdirilən meyvələrdən tam gigiyenik qaydada yüksəkkeyfiyyətli müxtəlif həcm və çeşidlərdə alma, ərik, şaftalı, gilənar, üzüm və qarışıq tərkibli nektarlar istehsal edilir. Həmin məhsullar “Badamlı” əmtəə nişanı ilə satışa çıxarılır. Eyni zamanda müəssisədə müxtəlif çeşiddə kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları, sadə, kakaolu və qarışıq növdə halva istehsal olunur. Bundan əlavə, müəssisədə çərəzqovurma və paketləmə sahələri də fəaliyyət göstərir.

Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə tanışlıq zamanı isə səfirə məlumat verilib ki, mərkəz 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılıb. Burada bronxial-astma xəstəliyindən əziyyət çəkən insanlar müalicə olunurlar. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur. Burada iki qadın, iki kişi, bir uşaq palatası və iki istirahət foyesi fəaliyyət göstərir. Yer altındakı duz dağının qalınlığı 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir.

Martın 7-də isə Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana Naxçıvan Dövlət Universitetində olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, 50 illik tarixə malik, dünyanın 80-dən çox tanınmış ali təhsil müəssisəsi ilə əməkdaşlıq edən universitet TEMPUS proqramı çərçivəsində 6 beynəlxalq layihənin iştirakçısıdır. Tələbə mobilliyinin inkişafı nəticəsində universitetin bakalavr və doktorantları öz təhsillərini Polşa, Rumıniya, İspaniya, İtaliya, Çexiya kimi Avropa ölkələrində davam etdirirlər. Naxçıvan Dövlət Universitetində hazırda xarici ölkələrdən 250-yə yaxın vətəndaş təhsil alır. Universitet əməkdaşları “Erasmus+” proqramı çərçivəsində İngiltərə, Almaniya, Avstriyada təcrübə keçiblər. Səfir Sanjay Rana Hindistan universitetlərinin Azərbaycanın bir sıra ali təhsil müəssisələri ilə uğurlu əməkdaşlığından danışıb, Naxçıvan Dövlət Universiteti ilə virtual əlaqələrin inkişafı, müştərək elmi-tədqiqat işlərinin aparılması, tibb, memarlıq və mühəndislik ixtisaslarının tədrisi, informasiya- kommunikasiya texnologiyalarından istifadə sahəsində əlaqələrin perspektivlərindən bəhs edib.

Daha sonra diplomat “Naxçıvan” Universiteti, “AKİ Əczaçılıq Anbarı” Məhdud Məsuliyyətli Cəmiyyəti, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi, Naxçıvan Muxtar Respublika Xəstəxanasında olub, adıçəkilən təhsil və səhiyyə müəssisələrinin fəaliyyəti ilə bağlı məlumatlandırılıb.

Qeyd edək ki, Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rananın Naxçıvan Muxtar Respublikasına səfəri bu gün başa çatacaq.

Səbuhi HƏSƏNOV

***Martın 7-dən başlayaraq İran İslam Respublikasının Urmiya şəhərində beynəlxalq sərgi keçirilir. Sərgidə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov və naxçıvanlı iş adamları iştirak ediblər.***

## İranda Naxçıvan məhsullarının sərgisi açılıb

Qida sənayesindən tutmuş əl işlərinədək Naxçıvanda istehsal edilən məhsullar 6 gün ərzində Urmiyada sərgilənəcək. Artıq öz işinə başlayan sərgidə Naxçıvan Biznes Mərkəzi ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən 15 şirkətin nümayəndə heyəti iştirak edir.

Hər iki ölkə sahibkarları üçün körpü rolunu oynayan və iqtisadi əlaqələrin genişlənməsinə xidmət edən sərgidə qida sənayesi məhsulları, dərman preparatları, yüngül sənaye məhsulları, mebel və kənd təsərrüfatı məhsulları nümayiş etdirilir.

Qeyd edək ki, sərgidə iştirak edən 15 şirkətin 36 növdə və 226 çeşiddə məhsulu və muxtar respublika sənətkarları tərəfindən hazırlanan 62 əl işləri sənayesi məhsulu İran İslam Respublikasının əhalisinə təqdim olunur.

İranın Naxçıvandakı sərgisi və Naxçıvandan olan sahibkarların İranda təşkil olunan sərgilərdə iştirakları tərəflərin qarşılıqlı imkanlarından istifadə etmək üçün əlverişli şərait yaradacaqdır.

Sərgi martın 13-dək davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti**

## Muxtar respublikanın enerji təhlükəsizliyi təmin edilmişdir





***Elektrik enerjisi cəmiyyətin, hər hansı bir ölkənin tərəqqisində, sosial-iqtisadi inkişafında mühərrik rolunu oynayan mühüm amildir. Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir, müasir elektrik stansiyaları yaradılır, maddi-texniki baza gücləndirilir. Bu istiqamətdə 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir.***

Muxtar respublikanın əlverişli iqlim şəraiti və coğrafi mövqeyi ekoloji cəhətdən təmiz, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə geniş imkanlar açmış, 2006-cı ildə Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları, 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Əgər 1995-ci ildə muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 8-ə çatdırılmışdır. 1995-ci ildə muxtar respublikada 111 milyon 500 min kilovat-saat elektrik enerjisi istehsal olunmuşdursa, 2016-cı ildə bu göstərici 4 dəfə artaraq 437 milyon 917 min kilovat-saata çatdırılmışdır. Yeni yaradılmış güclər daxili istehlakı tam ödəməklə yanaşı, muxtar respublikanı enerji ixrac edən regiona çevirmişdir.

2016-cı ildə muxtar respublikada istehsal olunan elektrik enerjisinin 204 milyon 321 min kilovat-saatı və ya 46,6 faizi su elektrik stansiyalarında, 203 milyon 939 min kilovat-saatı və ya 46,6 faizi istilik elektrik stansiyalarında, 29 milyon 657 min kilovat-saatı və ya 6,8 faizi isə Günəş elektrik stansiyasında istehsal edilmişdir. Alternativ və bərpa olunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 53,4 faizini təşkil etmişdir.

Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: “Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm, gün gələcək ki, Naxçıvan bütün enerji tələbatını bərpa olunan enerji növləri hesabına təmin edəcək”. Ölkə başçısının qeyd etdiyi kimi hazırda Ordubad rayonunda 36 meqavat gücündə su elektrik stansiyasının tikintisi, Naxçıvan Günəş Elektrik Stansiyasının gücünün artırılması və digər bu kimi mühüm tədbirlər muxtar respublikanın gələcəkdə enerji təhlükəsizliyinin tamamilə alternativ və bərpa olunan enerji mənbələri hesabına təmin olunmasına geniş imkanlar yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

8 Mart Qadınlar Günüdür

# Muxtar respublika qadınları ictimai-mədəni və sosial-iqtisadi həyatda fəal iştirak edirlər

*Qadın adı ülviyyətin, zərifliyin və gözəlliyin rəmzi kimi ölkəmizdə həmişə uca tutulmuşdur. Tariximizin hər bir səhifəsi Azərbaycan qadınının müdrikliyi, fədakarlıq və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik milli-mənəvi dəyərlərimizin yaranmasında və təşəkkül tapmasında, bu günlərədək yaşadılmasında qadınlarımızın misilsiz xidməti olmuşdur. Azərbaycanda qadına – anaya daim böyük ehtiram və hörmət bəslənilmiş, ana həmişə müqəddəs olmuş, namus, qeyrət rəmzi sayılmışdır. Müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarımızın adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçki hüququ əldə etməsi də, mədəniyyətin, incəsənətin və elmin müxtəlif sahələrində ilk addımlarını atması da Azərbaycan qadınının mədəni səviyyəsinin və intellektual potensialının təzahürüdür.*

Ölkəmizdə dövlət qadın siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ötən əsrin 70-ci illərindən başlayaraq qadınlarımızın cəmiyyətdə rolu və fəallığı artmış, onların ictimai-mədəni həyatda yeri daha da möhkəmlənmişdir. Dahi rəhbərin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra qadınların dövlət idarəçiliyində təmsilçiliyinə, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olmasına ciddi diqqət göstərilmiş, bu sahənin inkişafını tənzimləyən qanunvericilik bazası yaradılmış, ölkəmiz qadın hüquqlarının qorunması haqqında bir çox beynəlxalq konvensiyalara qoşulmuşdur. Ümummilli liderin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, 1998-ci ildə Azərbaycan Qadınlarının Birinci Qurultayının keçirilməsi isə qadınların hüquqlarının qorunmasına, ölkəmizin sosial və siyasi həyatında onların iştirakına, xüsusilə dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasına şərait yaratmışdır. Ulu öndər qadınların xalqımızın tarixində yerini və rolunu yüksək qiymətləndirərək deyirdi: ***“Zahiri gözəlliyi ilə daxili aləminin paklığının vəhdət təşkil etdiyi, öz səbri, təmkini ilə səciyyələnən Azərbaycan qadını dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Onun şəninə dastanlar qoşulmuş, ona dahilər və qəhrəmanlar anası deyilmişdir. Tariximizin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət qadın siyasəti uğurla həyata keçirilir. Bu gün Azərbaycan qadını təkcə respublikamızın elmi-mədəni potensialının artırılmasına töhfə vermir, bütövlükdə ölkəmizin milli dövlət quruculuğunda, ictimai-siyasi həyatında fəal iştirak edir. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 10 oktyabr tarixli Fərmanı ilə qəbul edilmiş “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanunu ölkədə bu sahədə dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsində əhəmiyyətli rol oynamışdır.

Dövlət başçısının bu il 8 Mart – Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanlandığı təbrikində deyilir: ***“Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyin, həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti vardır. Ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə etmişlər. Bu ilin respublikamızda “İslam Həmrəyliyi İli” elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atmışlar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır”.***

Dövlət qadın siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının müdafiə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin mühüm göstəricilərindən biridir.

Naxçıvanlı qadınlar dövlət idarəçiliyində, ictimai-mədəni həyatda fəal iştirak edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 7-si, muxtar respublikada bələdiyyə üzvlərinin 285-i qadınlardır. Hazırda muxtar respublikada 15 qadın bələdiyyə sədri, 76 qadın təhsil, 27 qadın mədəniyyət müəssisələrinin rəhbəri vəzifəsində çalışır. Ümumilikdə, təhsil, mədəniyyət və səhiyyə sahəsində 20 minə yaxın, dövlət qulluğunda 600-dən artıq qadın işləyir, sahibkarlıq fəaliyyəti ilə 19 qadın məşğul olur. Heç şübhəsiz ki, muxtar respublika qadınlarının bütün uğurlarının təməlində dövlətin böyük dəstəyi və davamlı qayğısı dayanır.

Muxtar respublikada qadınlar analıq vəzifəsini və borcunu da şərəflə yerinə yetirir, xalqımızın gələcəyi üçün ailə dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları olan, nəsillər arasında varisliyi ləyaqətlə davam etdirən övladlar tərbiyə edirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycan qadınının ictimai həyatımızdakı dünənki, bugünkü mövqeyi dilimizə, vətənimizə, torpağımıza, dövlətimizə, milli dəyərlərimizə və Azərbaycançılıq məfkurəsinə sədaqət nümunəsi olmuş və gələcəkdə də olacaqdır!”***

Son illər muxtar respublikada qadınların ictimai fəallığını yüksəltmək, onları öz hüquqları barədə məlumatlandırmaq məqsədilə müntəzəm olaraq maarifləndirmə tədbirləri keçirilir. Ahıl, tənha, xüsusi qayğıya ehtiyacı olan qadınların həyat şəraitləri yaxşılaşdırılır, onların məişət və sosial problemləri həll olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq sağlamlıq imkanları məhdud qadınlar, eləcə də aztəminatlı ailənin üzvü olan qadınlar peşə kurslarına cəlb olunur, məşğulluq problemləri həll edilir.

Muxtar respublikada istedadlı qadınların yaradıcılıqlarının üzə çıxarılması və inkişaf etdirilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Keçirilən yaradıcılıq müsabiqələrində istedadlı gənc qadınların iştirakı təmin edilir. Bundan əlavə, hər il milli dəyərlərimizi, adət-ənənələrimizi, zəngin keçmişimizi ilmələrə və tablolara köçürən istedadlı qadınların əl işlərinin sərgi-satışı təşkil olunur, mədəni-kütləvi tədbirlərdə yaradıcı qadınların sənət əsərləri nümayiş etdirilir. 2016-cı ildə milli və xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində sağlamlıq imkanları məhdud, aztəminatlı ailənin üzvü olan, istedadlı qadınların 11 dəfə əl işlərinin sərgi-satışı təşkil olunmuş, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən qadınların əl işləri mağazasında və sərgi-satışlarda 304 istedadlı qadının 1069 əl işi satılmışdır.

Muxtar respublikada təhsil sahəsində görülən məqsədyönlü tədbirlər qadınların da təhsil səviyyəsinin yüksəldilməsini təmin etmişdir. Bunun nəticəsidir ki, son illərdə ali təhsil müəssisələrinə daxil olan, o cümlədən 500-700 arasında bal toplayan abituriyentlər arasında qızlar çoxluq təşkil edir. Bununla yanaşı, muxtar respublikada müasir tibb ocaqlarının istifadəyə verilməsi qadınların sağlamlıqlarının qorunmasına hərtərəfli şərait yaratmışdır. Muxtar respublikada 8 minə yaxın qadının idmanın müxtəlif növləri ilə məşğul olması da yaradılan şəraitin məntiqi nəticəsidir.

Bu gün muxtar respublikanın ictimai-mədəni həyatında fədakarlıq göstərmiş, öz fəallıqları ilə seçilən qadınların əməyi də qiymətləndirilir, yubileyləri geniş qeyd edilir. Təkcə 2016-cı ildə 24 qadın Azərbaycan Respublikası Prezidentinin fəxri diplomuna və mükafatına, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüş, medallarla təltif olunmuşdur.

Qadınlarımız bundan sonra da adət-ənənələrimizi, ailə dəyərlərimizi yaşadacaq, ictimai fəaliyyətləri ilə muxtar respublikanın inkişafına, onun çiçəklənməsinə öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Naxçıvanda 8 Mart – Qadınlar Günü münasibətilə bayram tədbiri keçirilib

***Dünən 8 Mart – Qadınlar Günü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında bayram tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə teatrın foyesində istedadlı qadınların əl işlərindən və ötən il qadınların nəşr olunmuş kitablarından ibarət sərgiyə baxıblar.***





Bayram tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Azərbaycan qadını bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərib, ölkəmizə ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş edib. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu zaman-zaman təsdiq edib. Azərbaycan qadınları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra qadınların cəmiyyətdəki statusunun və rolunun yüksəldilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edib. Həyata keçirilən genişmiqyaslı fəaliyyət qadınların ictimai və siyasi fəallıqlarının yüksəlməsinə, onların mənəvi və intellektual potensiallarının artırılmasına, sosial müdafiələrinin möhkəmləndirilməsinə təkan verib.

Rəhman Məmmədov deyib ki, ulu öndərimiz tərəfindən əsası qoyulan dövlət qadın siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada qadınların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Müasirləşən və inkişaf edən muxtar respublikamızda bütün sahələrdə yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açır.

Sevindirici haldır ki, muxtar respublika qadınları yaradılmış bütün imkanlardan istifadə edərək təhsil alır, ictimai-siyasi, mədəni proseslərdə iştirak edir, özəl sektorda, dövlət qurumlarında, o cümlədən hüquq-mühafizə orqanlarında fəaliyyət göstərir, məsul vəzifələrə irəli çəkilirlər.

Diqqətə çatdırılıb ki, muxtar respublikada təhsil, səhiyyə, mədəniyyət sahələrində minlərlə qadın fəaliyyət göstərir. Onlar öz səmərəli fəaliyyətləri ilə gənc nəslin yüksək səviyyəli, fəal mövqeli, xalqına, dövlətinə sadiq vətəndaşlar kimi yetişməsi işinə, insanların sağlamlıqlarının qorunmasına, mədəniyyətimizin inkişafına böyük töhfələr verirlər. Bir sözlə, muxtar respublika qadınları öz fəaliyyətləri ilə Naxçıvanın sosial-iqtisadi, ictimai-siyasi həyatında yaxından iştirak edir, öz layiqli töhfələrini verirlər.

Rəhman Məmmədov bayram tədbirinin qadın iştirakçılarına Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təbrikini çatdırıb və onlara gələcək işlərində uğurlar arzulayıb.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək bildirib ki, hər bir cəmiyyətin inkişaf səviyyəsi o cəmiyyətdə qadına olan münasibətlə çox bağlıdır. Ölkəmizdə qadın adı həmişə uca tutulub, böyük hörmət və ehtiram göstərilib. Hələ orta əsrlərdə ilk dəfə olaraq Naxçıvanda qadın adına layiq Möminə xatın türbəsi ucaldılıb.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikamızda qadınlar bütün sahələrdə təmsil olunurlar. Onlar sahibkar, dövlət qulluqçusu, həkim, müəllim, rəssam, sənətkar, deputat, beynəlxalq dərəcəli idmançılardır. Bütün bunlar onu göstərir ki, cəmiyyət həyatının hər hansı bir hissəsini qadınlarsız təsəvvür etmək mümkün deyil.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov deyib ki, muxtar respublikada sosial qayğıya ehtiyacı olan qadınlara müxtəlif xidmətlər göstərilir. Hazırda muxtar respublikamızda yaşayan 221 sağlamlıq imkanları məhdud qadına evdə sosial-məişət xidmətləri göstərilir, onların yaşayış sahəsində iməciliklər təşkil edilir, bu kateqoriyadan olan şəxslərin tibbi müayinədən keçməsi təmin olunur, məişət şəraitləri yaxşılaşdırılır. Eyni zamanda nümunəvi ailələrin yubiley tədbirləri qeyd olunur, muxtar respublikanın uzunömürlü sakinləri ilə görüşlər təşkil edilir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında bildirib ki, dövlət qadın siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Bu gün muxtar respublika əhalisinin 50,1 faizi və ya 225045 nəfəri qadınlardır.

Ramilə Seyidova deyib ki, muxtar respublika qadınlarının bütün uğurlarının təməlində dövlətimizin böyük dəstəyi və davamlı qayğısı dayanır. Hər bir sahədə qazanılan uğur muxtar respublika qadınlarının yoluna çıraq olub, ictimai, sosial, mədəni mühitin aktiv iştirakçısı olmasına yeni çalarlar gətirib, fərdi nailiyyətlər qazanmasına şərait yaradıb. Məhz belə qayğının nəticəsidir ki, muxtar respublikada qadınlara müstəqillik ideyası ətrafında sıx birləşərək bu gün milli dövlət quruculuğu proseslərinin, ictimai hadisələrin fəal iştirakçısı olaraq regionumuzun sosial, elmi-intellektual, mədəni potensialının artırılmasına əvəzsiz töhfələr verən əhəmiyyətli qüvvə kimi yanaşılır.

Çıxışının sonunda Ramilə Seyidova qadınlara göstərilən diqqət və qayğıya görə muxtar respublika qadınları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Bayram tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva, Naxçıvan Dövlət Texniki Kollecinin müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Sürəyya Ələkbərova çıxış edərək qadın ucalığından, muxtar respublikada qadınların ictimai fəallıqlarından danışıblar.

Tədbirdə “Heydər Əliyev və Azərbaycan qadınının keçdiyi yol” adlı film nümayiş etdirilib.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən qadınlara diplomlar və hədiyyələr verilib.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının kamera orkestri, mahnı və rəqs ansamblı üzvlərinin, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının və Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının balaca fidanlarının çıxışları olub.

**Fatma BABAYEVA**

# Muxtar respublikanın bütün rayonlarında Qadınlar Günü qeyd olunub

## *Şərur rayonu*



Şərur rayonunda 8 Mart – Qadınlar Günü münasibətilə keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov bildirib ki, Azərbaycan qadınları həmişə cəmiyyətin aparıcı qüvvələrindən olub. Tariximizin və mədəniyyətimizin neçə-neçə şanlı, parlaq qəhrəmanlıq səhifəsi məhz qadınlarımızın adı ilə bağlıdır. Qadınlarımız bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstəriblər.

Vurğulanıb ki, Azərbaycan qadını həm də dünyaya böyük sərkərdələr, bəşəriyyətin mədəni fikir xəzinəsini yaradan və yaşadan əbədi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş edib. Müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarımızın adı çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb.

Vurğulanıb ki, ölkəmizdə ümummilli liderimizin müəyyənləşdirdiyi dövlət qadın siyasəti bu gün uğurla davam etdirilməkdədir. Bunun ifadəsidir ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan cəmiyyətində qadınların rolunun yüksəldilməsi üçün hərtərəfli şərait yaradılıb. Artıq Azərbaycan qadını ictimai-siyasi proseslərin önündə gedən qüvvəyə çevrilib.

Qeyd olunub ki, muxtar respublikamızda da qadınlar hərtərəfli qayğı ilə əhatə olunublar. Onlar regionumuzun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, uğurlu nəticələr qazanır, sosial-iqtisadi inkişafa öz töhfələrini verirlər.

İbrahim Məmmədov bildirib ki, bunu Şərur rayonunun timsalında da görmək olar. Hazırda rayonda dövlət qulluğunda işləyənlərin 34 faizini qadınlar təşkil edir. Qadınlarımızdan 1 nəfəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 1 nəfər Prezident mükafatçısıdır. 6 nəfər Azərbaycan Respublikasının, 7 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, 3 nəfər Azərbaycan Respublikasının, 1 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar tibb işçisi fəxri adını daşıyır. 9 nəfər "Tərəqqi" medalı ilə təltif olunub, 2 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar dövlət qulluqçusudur. Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında təmsil olunanların 3 min nəfərini, yaxud 29 faizini qadınlar təşkil edir.

İcra başçısı Qadınlar Günü münasibətilə tədbir iştirakçılarını və onların timsalında rayonun bütün qadınlarını təbrik edib, onlara uzun ömür, möhkəm cansağlığı, fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıb.

Tədbirdə Rayon Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ünbülbanu Musayeva, Azərbaycan Respublikasının Əməkdar müəllimi Rahilə Seyidova çıxış edərək qadınların rayonun sosial-iqtisadi həyatında, gənc nəslin təlim-tərbiyəsində, səhiyyə, mədəniyyət və digər sahələrdə fəal iştirakından danışıblar.

Rayon Mədəniyyət və Turizm Şöbəsinin hazırladığı maraqlı konsert proqramı ilə davam edən tədbir iştirakçılara xoş ovqat bəxş edib.

Sonda qadınlara hədiyyələr təqdim olunub.

## *Babək rayonu*



8 Mart – Qadınlar Günü Babək rayonunda da yüksək əhval-ruhiyyə ilə qeyd olunub. Bu münasibətlə keçirilən tədbirdə Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək qadınları bayram münasibətilə təbrik edib. O bildirib ki, ölkəmizin hərtərəfli inkişafında Azərbaycan qadınlarının da böyük töhfəsi vardır.

Qeyd olunub ki, Azərbaycan qadınları cəmiyyətimizin fəal üzvüdürlər. Qadınlarımız tutduqları vəzifələrdə dövlətimizə xidmət etməklə bərabər, həm də qayğıkeş ana, vəfalı həyat yoldaşıdır. Hazırda ölkəmizdə ictimai həyatda fəaliyyət göstərənlərin böyük bir hissəsini qadınlar təşkil edir. Naxçıvan Muxtar Respublikasında da qadınlar ictimai-siyasi sahədə fəal iştirak edir, bunun üçün onlara geniş imkanlar yaradılır, qadın əməyi yüksək qiymətləndirilir.

İcra başçısı bildirib ki, Babək rayonunda müxtəlif sahələrdə çalışan qadınlar öz bilik və bacarıqları, işgüzarlıqları və ictimai-siyasi həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər. Hazırda Babək rayonunun 74 minə yaxın əhalisinin 50 faizi, Yeni Azərbaycan Partiyası üzvlərinin isə 41,2 faizi qadınlardır. Rayon üzrə mədəniyyət işçilərindən 214 nəfəri, səhiyyə işçilərindən 345 nəfəri, məktəb direktorlarından isə 14 nəfəri qadınlardır. Qeyd olunub ki, qadınların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onlar yüksək dövlət mükafatları ilə təltif olunurlar.

Sonra Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri İsa Məmmədov və Şıxmahmud kənd tam orta məktəbinin direktoru Elmira Qocayeva çıxış ediblər.

Çıxışlarda Azərbaycan xalqının qadına, onun cəmiyyətdəki roluna, tutduğu mövqeyə böyük hörmətlə yanaşdığı vurğulanıb.

Tədbirin bədii hissəsində musiqi nömrələri səsləndirilib, rəqslər olub. Sonda qadınlara hədiyyələr verilib.

## *Ordubad rayonu*

*Ordubad rayonunda da Qadınlar Günü münasibətilə bayram tədbiri keçirilib.*

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov qeyd edib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün uğurla həyata keçirilən dövlət qadın siyasəti ictimai-siyasi həyatda qadınlarımızın rolunu daha da artırıb. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınların iştirakı təmin olunmasın. Məhz həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün muxtar respublikada, eləcə də Ordubad rayonunda qadınlar müxtəlif dövlət orqanlarında çalışır, bölgənin ictimai həyatında fəallıq göstərirlər.

Vurğulanıb ki, hazırda rayonda müxtəlif sahələrdə 1954 qadın çalışır. Onlardan 53 nəfəri məsul vəzifələri icra edir. Son illərdə rayonun ictimai həyatında fərqlənən qadınlardan 27 nəfər müxtəlif fəxri adlarla təltif olunub.



Bayram tədbirində Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri Qürbət Rzayevin, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Vilayət Bağırovun, "Tərəqqi" medalı ilə təltif olunmuş müəllim Sura Əsədovanın çıxışları olub. Çıxış edənlər zəriflik və gözəllik rəmzi olan qadın, ana adının tarixboyu Vətənimizdə həmişə uca tutulduğunu, Azərbaycan qadınının bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında mühüm xidmətlər göstərdiyini, Azərbaycanda qadına daim böyük hörmət bəslənildiyini qeyd ediblər.

Tədbir rayon Mədəniyyət Evinin "Dübəndi" instrumental ansamblı solistlərinin, "Nuray" rəqs qrupunun rəngarəng çıxışları ilə yadda qalıb.

Sonda qadınlara hədiyyələr təqdim edilib.

## *Kəngərli rayonu*

*Kəngərli rayonunda da Qadınlar Günü münasibətilə tədbir keçirilib.*

Tədbirdə çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov bildirib ki, müstəqilliyimizin bərpasından ötən dövr ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib, ölkəmizin hərtərəfli inkişafına, gənc nəslin təlim-tərbiyəsinə, onların intellektual-mədəni potensialının artırılmasına dəyərli töhfələr verib. Muxtar respublikamızda da əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət qadın siyasəti uğurla həyata keçirilir. Qadınlarımız muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, uğurlu nəticələr qazanırlar. Qadın əməyinə verilən yüksək qiymətin nəticəsidir ki, qadınlarımız hər il Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, digər dövlət mükafatlarına layiq görülürlər.

Qeyd olunub ki, hazırda Kəngərli rayonunda 14 qadın Azərbaycan və Naxçıvan Muxtar Respublikasının fəxri adlarını daşıyır, 4 qadın "Tərəqqi" medalı ilə təltif edilib. Səhiyyə sahəsində 124, təhsil sahəsində 470, mədəniyyət sahəsində 110 qadın çalışır. Rəhbər vəzifədə 6 qadın, idarəçilik və dövlət qulluğu sahələrində isə 20 nəfər qadın göstərilmiş etimadı şərəflə doğruldur.



Yeni Kərki kənd tam orta məktəbinin direktoru Təhminə Mustafayeva və Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin direktoru Dilguşə Qurbanova çıxışlarında qadınlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə rayonun musiqi kollektivlərinin çıxışları olub, qadınlara hədiyyələr təqdim edilib.

## *Culfa rayonu*



Qadınlar Günü münasibətilə Culfa rayonunda keçirilən tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev Azərbaycan qadınlarının öz dərin zəkaları və istedadları ilə bu gün ölkəmizə fədakarcasına xidmət etdiklərini bildirib.

Qeyd olunub ki, yeni əsrin Azərbaycan qadını milli dəyərləri öz simasında ehtiva etməklə bərabər, həm də müasir proseslərə ayaqlaşaraq intellektual səviyyəsini daim artırır, yüksək təhsilə malik kamil şəxsiyyət kimi formalaşır. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınların iştirakı təmin olunmasın. Qadınlarımız bu gün Azərbaycanımızda gedən ictimai-siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirak edir, dövlətimizin hərtərəfli inkişafına öz töhfələrini verirlər.

Dövlətimizin qadınlara göstərdiyi böyük qayğı müqabilində qadınların da daim cəmiyyət həyatında aktiv fəaliyyət göstərəcəyinə əminliyini bildirən icra başçısı onları təbrik edib, ictimai işlərdə və şəxsi həyatda uğurlar arzulayıb.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Səfərova, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Qadınlar Şurasının sədri Xanım Tağıyeva qadınlara göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək bundan sonra da Vətənimizin hərtərəfli inkişafı üçün əllərindən gələni əsirgəməyəcəklərini bildiriblər.

Sonra tədbirdə iştirak edən qadınlara hədiyyələr təqdim olunub.

Bayram tədbiri rayonun musiqi kollektivlərinin çıxışları ilə davam etdirilib.

## *Şahbuz rayonu*

*8 Mart – Qadınlar Günü münasibətilə Şahbuz şəhərindəki "Yeni Batabat" şadlıq sarayında tədbir keçirilib.*

Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev tədbirdə çıxış edərək qadınları bayram münasibətilə təbrik edib. Qeyd olunub ki, müasir dövrümüzdə qadınlarımız cəmiyyətimizin fəal üzvü kimi böyük nailiyyətlər əldə edirlər. Vurğulanıb ki, bu gün ölkə Prezidentinin həyata keçirdiyi siyasətin muxtar respublikamızda uğurla davam etdirilməsi nəticəsində qadınların cəmiyyətimizdəki rolu artıb. Bu gün cəmiyyətimizin inkişafında əməyi olan qadınlar yüksək mükafatlarla, fəxri adlarla təltif olunurlar. Ötən illər ərzində şahbuzlu qadınların fəxri ad alması, medallarla təltif olunması buna nümunədir. "Azərbaycan qadını tarixən öz mənəvi keyfiyyətləri ilə şöhrət qazanıb", – deyən icra başçısı çıxışının sonunda qadınlara cansağlığı, ailə səadəti, işlərində uğurlar arzulayıb.



Tədbirdə Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının sədri Rizvan Məmmədov və təşkilatın Qadınlar Şurasının sədri Mətanət Məmmədova, Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin müəllimi Növrəstə Xudiyeva və "Oğuz səsi" qəzetinin redaktoru Şəhla Nəbiyeva çıxış edərək qadınlara xoş arzularını çatdırıblar.

Bildirilib ki, cəmiyyətdə olduğu kimi, ailədə də xüsusi yeri olan Azərbaycan qadınına həmişə böyük hörmət göstərilir.

Bayram tədbirində Şahbuz Rayon Mədəniyyət Evinin instrumental ansamblı kollektivinin çıxışları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb, xoş ovqat yaradıb.

## *Sədərək rayonu*

***Sədərək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 8 Mart – Qadınlar Günü münasibətilə keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açıb.***



Vurğulanıb ki, respublikamızın bütün bölgələrində olduğu kimi, Sədərək rayonunun qadınları da dövlət qayğısı ilə əhatə olunublar. Hazırda rayonun idarə, müəssisə və təşkilatlarında yüzlərlə qadın çalışır. Onların əməyi dövlətimiz tərəfindən yüksək dəyərləndirilir. Bunun ifadəsidir ki, Sədərək rayonunda 1 nəfər qadın Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi, 1 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, 1 nəfər Naxçıvan Muxtar Respublikasının Əməkdar tibb işçisi fəxri adlarını daşıyır. Müəllimlərdən 2 nəfəri "Tərəqqi" medalı, 1 nəfər tibb işçisi "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub. İki nəfər müəllim "İlin müəllimi" müsabiqəsinin qalibidir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri Arif Qasımov, Sədərək kənd 1 nömrəli tam orta məktəbin direktoru Gülnarə Hüseynova rayonda qadınlara göstərilən diqqət və qayğıdan danışıblar.

Çay süfrəsi arxasında davam edən tədbirdə qadınlara hədiyyələr təqdim olunub.

Tədbir boyu Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin musiqi kollektivləri rəngarəng repertuarla çıxış ediblər.

**Xəbərlər şöbəsi**

# Albantəpə, Axura Kültəpəsi:
## Azərbaycanın nadir arxeoloji abidələri

Naxçıvan Muxtar Respublikası 2018-ci ildə İslam mədəniyyətinin mərkəzi olmağa hazırlaşır. Burada olan çoxlu sayda arxeoloji abidələr mədəniyyət turizmi, arxeoloji ekspedisiyalar və davamlı iqtisadi inkişaf kimi müxtəlif sahələrin inkişafına şərait yaratmış, həmçinin xeyli sayda beynəlxalq ekspertlərin regionun qədim tarixi haqqında biliklərini genişləndirmişdir. Bütün bu diqqətəlayiq nailiyyətlər 20 ildən artıqdır, Ermənistan tərəfindən iqtisadi blokadaya məruz qalmış, sülh və təhlükəsizliyin möhkəm təmin olunduğu Naxçıvan Muxtar Respublikasında həyata keçirilir. Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan hökuməti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası qonşu dövlətlərlə mühüm diplomatik münasibətlər qurmuş, şəhərlərin inkişafı, ictimai işlər, həmçinin bütün təhsil sahələrində tədrisin inkişaf etdirilməsi və təhsil infrastrukturuna xüsusi diqqət yetirmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının bütün bu nailiyyətləri mükəmməl nümunə kimi Avropa və Asiyanın bir çox ölkələrində tətbiq oluna bilər.

"Axura Kültəpəsi" yaşayış məskəni Antik dövrə aid olub, Şərur rayonunda, Qoşatəpədən 2 kilometr şərqdə, Axura çayının sahilindəki təpəliklərin üzərində yerləşir. Bu yaşayış məskəni 7-8 hektar ərazini əhatə edir. Tanınmış beynəlxalq arxeoloqlar ərazidə qazıntı işləri aparmışlar və 1,5 metr dərinlikdə divar qalıqları aşkar etmişlər. Professor V.Baxşəliyevin fikrincə: "Davam edən qazıntı sahəsindən 20-25 santimetr qalınlığında kül təbəqəsi, osteoloji və bitki qalıqları, gil qab parçaları və digər əhəmiyyətli əşyalar tapılmışdır".

"Axura Nekropolu I" arxeoloji abidəsi orta dəmir dövrünə aiddir və Şərur rayonunun Axura kəndində yerləşir. Təəssüf ki, bu milli abidənin bir hissəsi Axura kəndi yaxınlığındakı selbasar ərazidə baş vermiş sel daşqını nəticəsində zədələnmişdir. Əraziyə səfər edənlər və turistlər bu cür təsirli xüsusiyyətlərə malik olan konusvarı başdaşlarını orada görə bilərlər. Ərazidən dərinliyi 1,5 metr olan 2 qəbirdən uzunluğu 185 santimetr olan kişi skeleti aşkar edilmişdir.

"Axura Nekropolu II" arxeoloji abidəsi Antik dövrə aiddir və Şərur rayonunun şərq tərəfindəki Axura I nekropolundan 1 kilometr məsafədə, Axura çayının sağ sahilində yerləşir. Arxeoloji tədqiqatlar nəticəsində iki qəbir öyrənilmiş və onların torpaq qəbirlərdən ibarət olduğu müəyyənləşdirilmişdir. Qəbirlərdən kiçikölçülü saxsı qab qırıqları və sair maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.




"Axura Nekropolu III" Şərur rayonunun Axura kəndinin yaxınlığında yerləşir. Buradakı qəbirlər şərq istiqamətinə qazılmışdır. Bəzi qəbirlərin üzərində ərəb dilində kitabələri olan sənduqə tipli sinədaşları və qoç daşları olmuşdur.

"Albantəpə" arxeoloji abidəsi qədim dövrə aiddir və 5 hektar ərazini əhatə edərək Şərur rayonunun Axura kəndinin qərb tərəfində yerləşir. Bu yaşayış məskəni 1979-cu ildə milli abidə olaraq qeydə alınmış və dağlarla əhatə olunmuş təpəliklərin üzərində yerləşir. Professor A.İ.Novruzlunun fikrincə: "Albantəpə qərb istiqamətdən Axura çayı ilə sərhəddir. 1979-1985-ci illərdə aparılan tədqiqatlar bu mühüm arxeoloji əraziyə daha çox fikir yönəltmişdir. Yerin 1,5 metr dərinliyində olan mədəni qatın daxilində 6-7 santimetr qalınlığında kül qatı aşkar edilmişdir ki, bu kül qatı təsdiq edir ki, həmin yaşayış məskəni yandırılmışdır". 1985-ci ildə Albantəpədə aparılmış qazıntılar zamanı oradan zəngin mədəni qat aşkar edilmişdir. Professor Novruzlunun fikrincə: "Bu divar daşlardan inşa edilmiş, hər iki tərəfdən qalınlığı 2,5-3 santimetr olan gil suvaqla örtülmüşdür". Ərazidən həmçinin müxtəlif çürüntü qalıqları, divarlar, osteoloji materiallar, üzərinə mina qatı çəkilmiş müxtəlif gil qab nümunələri tapılmışdır. Aparılmış arxeoloji tədqiqatlar həmçinin təsdiq edir ki, Albantəpə çoxtəbəqəli bir abidədir və yüz illər boyu həyat orada daimi olaraq davam etmişdir. Tədqiqatlar zamanı xeyli sayda keramika məmulatı, dəmirdən hazırlanmış əmək alətləri və silahlar da ərazidən aşkar edilmişdir. (Qafqazın digər ərazilərindən fərqli olaraq buradan daha çox keramika nümunələri aşkar olunmuşdur). Ərazidən küp, küpə, qazan, ikiqulplu qablar, vazalar, ağzı novçalı qablar, ördəkburunlar və onların kiçikölçülü parçaları və kirəmitlər tapılmışdır.

Qeyd edilməlidir ki, buradan tapılmış kirəmit qabların forması uzunsov şəkildədir və dünyada çox nadir hallarda rast gəlinir. Yerli əhali bu yaşayış məskənində eramızdan əvvəl V-I əsrlərdə yaşamışdır. Albantəpədə aşkar edilmiş sütun altlığı turistlərin görə biləcəyi qeyri-adi cazibədarlıqdır. Bu abidələr Naxçıvan dövlətinin yerli əhali ilə əməkdaşlığı sayəsində qorunub saxlanmışdır. YUNESKO rəhbərliyi bu nadir abidələrin qorunmasına dəstək olmaq və maliyyə yardımı göstərməklə bu dəyərli arxeoloji sahələrlə yaxından maraqlanmalıdır. Sütun altlıqlarının səthləri elə bir üsulla tikilmişdir ki, ərazidə mövcud olan geniş tikililərin olduğunu sübut edir. Bu orijinal tapıntılar Şərur rayonundakı Albantəpəni mədəni turizm üçün mühüm beynəlxalq mərkəzə çevirir və beynəlxalq arxeoloji tədqiqatlara yol açır. Möminə xatın türbəsi kimi Albantəpə bütün dünyaya Azərbaycan arxeologiyasını təqdim etmək üçün mühüm rol oynayır.

**Peter TASE**
***04.03.2017***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" və "Eurasia review" qəzetləri***

# AMEA Naxçıvan Bölməsi elmi tədqiqatların vəziyyəti və inkişaf istiqamətləri haqda hesabat verib

***Martın 6-da Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclasında AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bölmə üzrə elmi tədqiqatların vəziyyəti və inkişaf istiqamətləri haqda məruzə edib.***

İsmayıl Hacıyev bölmənin fəaliyyəti haqqında geniş məlumat verərək Naxçıvan tarixi, mədəniyyəti, ədəbiyyatı, folkloru, incəsənəti, təbii sərvətləri, flora və faunasının sistemli şəkildə öyrənildiyini bildirib. Hesabat ilində bir sıra nailiyyətlərin əldə olunduğunu nəzərə çatdıran İsmayıl Hacıyev qeyd edib ki, ötən il 6 problemi əhatə edən 7 mövzuda 81 mərhələdə 31 iş üzrə tədqiqatlar aparılıb. O, 76 mərhələ üzrə işlərin artıq tamamlandığını, bölmə əməkdaşları tərəfindən 3 tətbiqyönümlü patentin alındığını, 5 qrant layihəsinin həyata keçirildiyini bildirib.

Akademik bölmənin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində aparılan işlər haqqında da məlumat verərək ABŞ, Fransa, Almaniya, İngiltərə, İsveç, Bosniya-Hersoqovina, Türkiyə, Rusiya, Qazaxıstan, İran və digər ölkələrin elm və ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrinin imzalandığını söyləyib.

Ötən il Seysmoloji Xidmət Mərkəzinin istifadəyə verildiyini deyən akademik bölmənin kitabxanasında 123 kitabın elektron variantının hazırlanaraq *www.ameanb.nakhchivan.az* saytında və kitabxananın daxili şəbəkəsində yerləşdirildiyini vurğulayıb.

İsmayıl Hacıyev bölmənin nəşriyyatçılıq fəaliyyəti və kadr hazırlığı məsələlərinə də toxunub. O deyib: "Hesabat ilində 3-ü xaricdə olmaqla, 23 monoqrafiya, biri xaricdə olmaqla, 14 kitab, 4 metodik vəsait, 137-si xaricdə olmaqla, 560 məqalə və konfrans materialı və 7-si xaricdə olmaqla, 15 tezis çap olunub. Elmi müəssisələrin alimləri impakt faktorlu jurnallarda 29 məqalə dərc etdirib, 26 beynəlxalq simpozium və konfransda məruzələrlə çıxış ediblər.

2016-cı ildə 7 əməkdaşa dosent elmi adı verilib, fəlsəfə doktorluğu üzrə 6 dissertasiya işi müdafiə edilib, elmlər doktorluğu üzrə isə 2 elmi iş Ali Attestasiya Komissiyasına təqdim olunub".

Məruzə dinlənildikdən sonra müzakirə edilib, rəyasət heyətinin qərarı ilə hesabat qənaətbəxş hesab olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Universitetlərdə bədii gimnastika bölmələri fəaliyyətə başlayıb



Bu il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar Naxçıvan Dövlət Universitetində bədii gimnastika bölməsi fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərəcək bölməyə Azərbaycan Respublikasının idman ustası Humay Qafarova rəhbərlik edəcək.

Universitetin idman zalında olan məşğələlər həftənin I, III, V günləri keçiriləcək.

Dünən "Naxçıvan" Universitetinin idman zalında da bədii gimnastika məşqlərinə başlanılıb. Məşqdən öncə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirib ki, bu gün muxtar respublikanın şəhər və rayonlarında idmanın inkişafı üçün hər bir şərait yaradılıb. Ali və orta ixtisas təhsili müəssisələrində idman dərslərinə diqqət yetirilir. Elit idman növü kimi ad qazanan bədii gimnastikaya Naxçıvanda böyük maraq göstərilir. Hazırda muxtar respublikada bu idman növü ilə yüzlərlə uşaq məşğul olur. Ali təhsil ocaqlarımızda qızların bədii gimnastika məşqlərinə başlanılıb.

Sonra məşq prosesinə start verilib.

Həftənin ikinci və dördüncü günləri keçiriləcək məşqlərə Humay Qafarova rəhbərlik edəcək.

# Atıcılıq üzrə açıq birincilik keçirilib

Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş qadınlar arasında atıcılığın stend növü üzrə muxtar respublika açıq birinciliyi keçirilib. Yarışdan öncə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxış edərək Bədən Tərbiyəsi və İdman Günü haqqında məlumat verib, iştirakçılara uğurlar arzulayıb.

20 nəfərə yaxın idmançının mübarizə apardığı birincilikdə qalib adını Şəhla Əliyeva qazanıb. Lalə Nağıyeva və Nigar Seyidova isə sərrast atıcılıqda ikinci və üçüncü yerləri tutublar.

Sonda qaliblərə Gənclər və İdman Nazirliyinin diplomları, Atıcılıq Federasiyasının hədiyyələri təqdim olunub.

# Naxçıvan Muxtar Respublikası üzrə 2017-ci ilin fevral ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Culfa rayonu | 2272824 | 231109 | 232011 | 100,4 |
| 2. | Ordubad rayonu | 2418832 | 250069 | 250739 | 100,3 |
| 3. | Şahbuz rayonu | 1141009 | 121878 | 122113 | 100,2 |
| 4. | Kəngərli rayonu | 1508786 | 152107 | 152352 | 100,2 |
| 5. | Şərur rayonu | 3785372 | 386633 | 387106 | 100,1 |
| 6. | Sədərək rayonu | 445428 | 44620 | 44654 | 100,1 |
| 7. | Naxçıvan şəhəri | 5172286 | 551118 | 551366 | 100,0 |
| 8. | Babək rayonu | 3916438 | 397441 | 397475 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10656898 | 2130424 | 1513025 | 71,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31317873** | **4265399** | **3650841** | **85,6** |

# Tələbələr arasında yoldaşlıq görüşü



***Naxçıvan Dövlət Universitetində basketbol üzrə yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi görüşdə Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin komandaları qarşılaşıb.

Meydanda daha əzmkar mübarizə aparan Naxçıvan Dövlət Universitetinin komandası 46:24 hesabı ilə qalib gəlib.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Heydərov Dilavər Bəhman oğlunun adına verilmiş MV-039118 seriya nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 191**